

Vahid MƏHƏRRƏMOV



# Sübh çağı

Təbiət vurğunu olan Akif həmişə səhərlər qoyun-quzunu örüşə ötürə-ötürə Günəşin üfüqdən boylanmasına tamaşa etməkdən zövq alardı. Hava işıqlandıqca kənddə səs-küy artır, itlər hürüşür, xoruzlar banlayardı. Həyətlərdəki təndirlərdən tüstü qalxır, yovşan qoxulu dərələrdə duman sürünürdü. Səhər-səhər Akifin gözləri qarşısında gözəl təbiət mənzərələri canlanırdı.

Qoyun-quzunu örüşə ötürəndən sonra nəfəsini bir az dərən Akif yavaş-yavaş dərəyə endi. Axşamdan otların üstünə düşmüş şeh göz yaşı kimi yumrulanıb güllərin ləçəyindən, otların nazik gövdələrindən asılmışdı. Akifin şalvarının ətəkləri şehdən islanmışdı.

Quşların həzin nəğməsi dalğa-dalğa çöllərə yayılırdı. Kəpənəklər qanadlarını asta-asta tərpədib uçuşurdular. Akif dərənin ən hündür yerində ayaq saxlayıb qarşısındakı gözəl mənzərənin seyrinə daldı. Qızaran üfüqdən günəşin ilk şəfəqləri asıla qalıb "yellənirdi". Göyün üzündə süzən bir topa bulud sanki kəpənəklər kimi uçuşub Günəşi salamlayırdı. Dəqiqələr, anlar arxada qaldıqca üfüqün qızartısı da artırdı. Getdikcə sıxlaşıb çoxalan şəfəqlər hər tərəfə yayılırdı. Sonra Günəş asta-asta yer üzünə gülümsədi. Göz qamaşdıran parlaq şəfəqlər bircə anda ətrafı nura boyadı.

Akif sübh çağı gördüyü bu mənzərədən zövq ala-ala evə qayıdırdı. Günəşin şəfəqləri ürəyinə, qəlbinə düşdüyündən canı, qanı coşmuşdu. Sabah yenə də həvəslə Günəşin doğmasına tamaşa edəcəkdi. O istəyirdi ki, həmişə Günəşlə hamıdan birinci o salamlaşsın. Çoxları onun bu hərəkətinə pis baxırdı. Akif isə heç kimə məhəl qoymadan hər gün səhər-səhər ürəyini, qəlbini günəşin al şəfəqləri ilə yuyurdu...

# Yolçu

Biçin vaxtlarında dən üyütmək üçün dəyirmanda həmişə sıxlıq olurdu. Gərək əl-ayağa düşüb əvvəlcədən növbə tutaydın. Xəlil kişi də bir neçə gün idi arvadı Salatının qurudub kisəyə yığdığı dəni aparıb dəyirmana qoymuşdu. Növbəsi səhər lap ertəyə düşmüşdü. Dəyirman da qonşu kənddə idi. Xəlil kişi gecikməmək üçün yuxudan lap ertədən oyandı. Çörəyini yedi, atını minib yola düşdü. Atın nalı yerə dəydikcə asfaltdan qopan ritmik çaqqaçaq səsləri səhərin sakitliyində aydınca eşidilirdi. Aşağı məhəllədən keçəndə Nabat arvad əlində bir neçə beçə yolunun üstünə çıxıb dedi:

- Ay Xəlil qağa, sabahın xeyir. Sən Allah, o atı bir hovur saxla, bu beçələri kəs. Oğlum Bakıdan gələcək, ona yaxşı bir yemək hazırlayım.

Xəlil kişi tələssə də dul arvadın sözünü yerə salmadı. Beçələrin qanadlarını cütləyərək bir-bir ayağının altına qoyub yönünü qibləyə çevirib kəsdi. İşini qurtarıb əlinin qanını yuyub ata minmək istəyirdi ki, birdən Nabatın kiçik qızı Təhminə ağlaya-ağlaya yanlarına gəlib dedi:

- Ana, ana, inəyimiz tövlədə yıxılıb cabalayır. Deyəsən, ölür.

- Yox, ay qızım, qorxma, ölmür, doğur.

Nabat arvad tələsik tövləyə qaçdı. Xəlil kişi də onun arxasınca yüyürdü. İçəri girəndə gördülər ki, yerə döşənmiş heyvan zarıyıb səs salsa da, gözləri hədəqəsindən çıxsa da doğa bilmir. Bunu görəndə Nabat arvad ona ağız açıb: "Ay Xəlil qağa, sən Allah, get mal doxturu Tələti gətir, bu inəyə baxsın. Birinci qarnıdı deyinən yazıq heyvan çətin doğur. Neçə vaxtdır ağartısız qalmışıq, gözümüzü ona dikmişik. O da ölsə, biz batdıq", - dedi.

Xəlil kişi iki daş arasında qalmışdı. Bilmirdi ki, neyləsin. Dəyirmanda növbəsi çatmışdı, burada da dul arvadın xahişini yerinə yetirmədən getməyi kişiliyinə sığışdırmırdı. Bilirdi ki, bu qapıdan baytar girməsə inək öləcək, ailə ağartısız qalacaq. Tələsik ata sıçrayıb Tələtin qapısına çapdı. Onu tərkinə alıb gətirdi.

İnəyin doğması xeyli çəkdi. Hər şey salamatlıqla qurtardı. Gün qalxmış, hava isinmişdi. Nabat arvad ona dil-ağız elədi. Xəlil kişi atı dördnala çapıb getdi. Yol boyu fikirləşirdi ki, yəqin onun vaxtı çoxdan keçib. İndi gərək təzədən növbə tutsun. Bu da bir neçə gün çəkəcəkdi. Asfaltdan kövşən yoluna dönüb dəyirmana çatdı.

Cır-cır cırıldayan köhnə qapıdan içəri girəndə gördü ki, ondan əvvəl dən üyüdən Nofəl hələ də dəyirmandadır. Dəyirmançı Əbdül də onun yanında dayanıb söhbət edirdilər. Xəlil kişi fikirləşdi ki, yəqin gecə su kəsilib, dəyirman işləməyib. Ona görə də Nofəl bu vaxtda qalıb. Deməli, növbəsi hələ keçməyib. Yaxınlaşıb sevincək salam verdi. Onun salamını bir az soyuq alan Nofəl narazılıqla dilləndi:

- Ay Xəlil, harada yatıf qalmısan? A kişi, niyə gəlif çıxmırsan? Öz dənimi üyüdüb qurtardım. Gördüm gəlif çıxmırsan, uşaqları yola salıf sənin buğdanı təhnəyə töhdüm. Budur e-ee, axırıdır. Day üyüdüf qurtarmışam.

Xəlil kişi xeyli dil-ağız edib başına gələnləri ona danışdı. Sonra un taylarını ata yükləyib yola çıxdılar. Xəlil kişi Nabatın qapısının ağzından keçəndə ağ bir buzovun büdrək ayaqlar üstündə həyətdə gəzdiyini görüb sevindi.

# Həyata dönüş

İki gün əvvəl həkimlə söhbətdən sonra İrşad yaşamağa son ümidini də itirdi. Dərdinə əlac tapılmırdı. Tibb elmi onun xəstəliyi qarşısında aciz qalmışdı. İynə vurdurmaqdan, dava-dərman atmaqdan da təngə gəlmişdi. Nə ölən kimi ölür, nə də qalan kimi qalırdı.

Tez-tez başından küt ağrılar tutur, ağız-burnundan qan gəlir, huşunu itirirdi. Bir müddətdən sonra da ayılıb heç nə olmamış kimi ayağa qalxırdı. Xəstəliyinə görə ailə də qura bilməmişdi. Hərdən ağlından özünə qəsd etmək fikri də keçirdi.

Evdə də hamı onun xəstəliyindən bezmişdi. Günlərin birində qərara gəldi ki, baş götürüb səhralara getsin. Çöllərdə ölüb qurd-quşa yem olsun. Evdəkilərə bir parça kağız yazıb qoydu ki, həyatdan bezib, yaşamaq istəmir, onu heç yerdə axtarmasınlar. Sonra əlinə bir ağac götürüb ucsuz-bucaqsız çöllərə üz tutdu. Gündüzlər dayanmadan yol getdi, gecələri qayaların oyuğunda yatdı. Səhərlər yuxudan oyanıb yoluna davam elədi. Ayaqları onu hara aparırdısa, ora da gedirdi. Aclığını yatırtmaq üçün əlinə nə gəldi yeyirdi. Otlardan birini ağzına qoyanda onun acı olduğunu hiss elədi. Ondan bir az da çox yedi ki, bəlkə zəhərlənib ölər, canı bu əzab və ağrılardan tez qurtarar. Qarşısına çıxan quş yumurtalarını yeməkdən də imtina etmirdi. Susuzluqdan dodaqları çatlamışdı. Halsızlıqdan addım ata bilmirdi. Birdən yerə yıxılıb özündən getdi. Ağzından, burnundan qan gəldi...

İrşad ayılanda gördü ki, günün batmağına az qalır. Tez olub-qalan gücünü toplayıb ayağa qalxdı. Asta-asta yoluna davam elədi. Dərədən aşağı düşəndə qoyun sürüsü gördü. İtlər hürüşüb üstünə cumdular. Çoban onlara acıqlanıb qabaqlarını aldı. İrşad asta-asta gəlib onun yanına çatdı. Çörək yeyəndən sonra başına gələnləri çobana danışdı. Onun dediklərinə qulaq asandan sonra çoban Məhəmməd İrşada məsləhət gördü ki, heç yana getməyib onlarla qalsın. Bəlkə heç başına bir iş gəlməyəcək, yovşanlı çöllərin təmiz havası, pencəri, tərəsi, gül-çiçəyi ona dərman olacaq. İrşad məsləhətə qulaq asıb onun yanında qaldı. Səhər-axşam qoyun, keçi südü içdi, qabağına keçən ot-ələfdən yedi. Bir neçə həftə beləcə ötdü. Günlər arxada qaldıqca İrşad özünü yaxşı hiss edirdi. İki gün idi heç ürəkkeçməsi də tutmurdu. Buna görə də çobanın yanında qalmayıb evlərinə döndü.

Doğmaları, yaxınları İrşadı sapsağlam görəndə sevindilər. Bir müddətdən sonra onların həyətlərindən toy səsi də gəldi.

# TƏNBƏLİN YUXUSU

Çox tənbəl olan Kərəm həmişə iş-gücdən qaçardı. Nə qədər iş təklif etsələr də ərindiyindən ayağını heç yerə atmazdı. Yalnız yatıb şirin yuxular görərdi. Axır ki, bir gün ürəkləndi, tənbəlliyini bir qırağa qoyub işə çıxdı. Axşam evə yorğun qayıdan Kərəm bir tikə çörək yeyib yerinə girdi. Gözlərini yumar-yummaz yuxu onu haqladı. Yuxuda gördü ki, yaxşı maaş verən bir idarədə işləyir, məhəllədəki mağazalara borclarını ödəyir. Ev alıb ailəsini kənddən şəhərə gətirir. Uşaqları geniş, işıqlı və yaraşıqlı otaqlarda yaşayır. Kərəm onlara təzə kostyum, ayaqqabı, palto alır. İndi özünü əvvəlki günlərdən ağıllı hiss edir.

Evlərinə yaxşı bazarlıq edib geri qayıdanda oğrular yolda qabağını kəsib pulunu almaq istəyirlər. Kərəm əziyyətlə qazandıqlarını onlara verməyərək müqavimət göstərir. Tərslik etdiyini görən oğrular onun üstünə bıçaq çəkib öldürməklə hədələyirlər. Kərəm qışqırıb yoldan keçənləri köməyə çağırır.

Öz səsinə ayılıb gözlərini açan Kərəm, yuxu gördüyünü biləndə yaman kədərləndi. Öz-özünə "Kaş bütün bunlar həqiqət olaydı" - dedi. Gözlərini ovuşdura-ovuşdura əlini atdı ki, işığı yandırsın. Gördü ki, ödəniş eləmədiyinə görə işıqlarını kəsiblər. Kibritin dənəsini çəkdi ki, şamı alışdırsın. Gördü ki, şam da yanıb qurtarıb. Əlini cibinə apardı ki, gedib mağazadan təzəsini alsın. Gördü ki, cibində bir qəpik də olsun, pulu qalmayıb. Evi xeyli axtarıb yarısı yanmış bir şam tapdı. Onu alışdırıb zəif işığında bir az oturdu. Başı yaman ağrıyırdı. Bir stəkan çay içib şirin yuxular görmək üçün yerinə girdi.

...Onun xorultusu darısqal və qaranlıq otağı başına götürmüşdü.

Deyəsən, tənbəl Kərəm yenə də şirin yuxu görürdü...